# Qoşma

İsmin adlıq ,yiyəlik , yönlük və çıxışlıq hallarında olan sözlərə qoşularaq müəyyən məna çaları yaradan köməkçi nitq hissəsinə qoşma deyilir.

1. Birgəlik , vasitə ,alət qoşmaları : ilə (-la²) , - ca² .Məs : Dostum ilə gəzməyə getdik.

2. Zaman qoşmaları: əvvəl ,qabaq , sonra ,bəri .Məsələn : Dərsdən sonra nənəmgilə yollandıq.

3. Məsafə qoşmaları : kimi ,qədər, - dək ,- can².Məs: Evədək piyada getdik.

4. İstiqamət qoşmaları : sarı ,tərəf , doğru ,qarşı .Məs: Ona sarı boylandım.

5. Bənzətmə qoşmaları : kimi , qədər , -tək , -ca² , təki.Məs: Atam kimi mən də polis olacağam.

6. Fərqləndirmə qoşmaları: başqa , savayı , özgə , qeyri , əlavə .Məs: Adildən başqa hamı bu fikri bəyəndi.

7. İstinad qoşmaları : görə , əsasən .Məs: Dediklərinə əsasən mən bunu dedim.

8.Səbəb , məqsəd qoşmaları ;üçün , görə , ötrü ,sarı, üstündə , uğrunda , naminə.Məs: Sənin üçün darıxaram.

9 .Aidlik qoşmaları : dair , aid , xas ,məxsus , haqda , barədə. Məs: Sənə aid kitab yoxdur.

MİRZƏYEVA ŞƏBNƏM

Close Notebook

kami

LIVEWORKSHEETS